UOT 339.9:638-005

*Zaur Cahangir oğlu ƏSƏDOV*
*Azərbaycan Elm və Təhsil Nazirliyi,*
*İqtisadiyyat İnstitutunun doktorantı*

# QLOBAL İQTİSADİ-MALİYYƏ BÖHRANLARININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN SƏNAYE SEKTORUNUN FƏALİYYƏTİNƏ TƏSİRİNİN TƏDQİQİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** Qlobal iqtisadi-maliyyə böhranlarının tarixini, xarakterik xüsusiyyətlərini və törətdiyi fəsadlarını açıqlamaq, 15 ildə baş verən böhranların Azərbaycanın sənaye sektorunun fəaliyyətinə təsirini tədqiq edərək müvafiq ehtiyat imkanlarını aşkar etmək və onlardan səmərəli istifadə üzrə tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

**Tədqiqatın metodikası -** sistemli yanaşma, qruplaşdırma, müqayisəli təhlil və qiymətləndirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** son 15 ildə baş verən iqtisadi-maliyyə böhranlarının Azərbaycanın sənaye sektorunun fəaliyyətinə mənfi təsirləri çoxsaylı indikatorların köməyi ilə qiymətləndirilmiş, aşkar edilən nöqsanların aradan qaldırılması üçün müvafiq təşviq mexanizminin formalaşması, innovasiya infrastrukturunun genişləndirilməsi, qlobal dəyər zəncirinə ölkəmizin fəal inteqrasiya olunmasının vacibliyi ön plana çəkilir.

**Tədqiqatın nəticələri -** Azərbaycanın emal sənayesinin baş verə biləcək böhranlara tab gətirməsi üçün daha təsirli, beynəlxalq təcrübəni özündə ehtiva edən qabaqlayıcı təşkilati-iqtisadi və texnoloji xarakterli tövsiyələr işlənilmişdir.

**Tədqiqatın orijinallığı və elm yeniliyi** – Dünyada baş verən qlobal iqtisadi-maliyyə böhranlarının təsnifat sxemi işlənilmiş, onların başvermə səbəbləri, xarakterik xüsusiyyətləri və törətdiyi fəsadlar dünya ölkələri üzrə qısa şərh olunmuşdur. Azərbaycanın sənaye sektorunun fəaliyyətinə böhranların təsiri müəllif tərəfindən hesablanan sistem göstəricilərin köməyi ilə təhlil edilib qiymətləndirilmiş, aşkara çıxarılan ehtiyat imkanlardan səmərəli istifadə yolları göstərilmişdir.

***Açar sözlər: qlobal iqtisadi böhranlar, emal sənayesi, pandemiya, təsnifat strategiyası, mexanizm.***

## *Giriş*

Qloballaşan dünyada iqtisadi-maliyyə böhranları bəşəriyyətin tarixi boyunca vaxtaşırı baş vermiş və müvafiq təsirlərə məruz qalan çoxsaylı ölkələrdə böyük dağıntılara səbəb olur. Kapitalizmin formalaşdığı dövrdən bu vaxtadək 30-dan çox qlobal iqtisadi-maliyyə böhranları baş vermiş və onlar orta hesabla 8-10 ildən bir təkrarlanır. Başlanğıcını hələ bizim eradan əvvəl Roma İmperiyası dövründə şərtləşdirən iqtisadi böhran maşınlı sənayenin yarandığı dövrlərdə nisbətən intensiv xarakter alaraq XIX əsrin 25-ci illərində İngiltərədə baş vermişdir. SSRİ-nin süqutundan sonra formalaşan cəmiyyətdə bir-birinə nüfuz edən hadisələr özünün yeni, lakin daha mürəkkəb mərhələsinə qədəm qoymuşdur. Müasir dünyada insanın təfəkkürü və onun əməyinin nəticəsində istehsal edilən yeni silahların, dağıdıcı vasitələrin, neqativ məzmunlu ideologiyaların yaranması və mənafelərin toqquşması nəticəsində insanların həyatına son qoyulur, yaşayış məntəqələri yerlə-yeksan edilir.

Dünyada baş verən yeni növ virusun sürətlə yayılaraq pandemiyaya çevrilməsi də iqtisadi böhranların baş verməsini şərtləndirir.

Hələ 2007-ci ildən başlayaraq beynəlxalq miqyasda yanacaq-enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətlərinin sürətli artımı, bank kreditlərinin və aşağı gəlirli ipoteka borclarının geri qaytarılması prosesində baş verən çətinliklər, bütünlükdə tələb və təklif arasında yaranan disbalans maliyyə böhranının dərinləşməsinə yol açmışdır. Nəticə etibarı ilə baş verən həmin iqtisadi

və maliyyə böhranları ayrı-ayrı ölkələrin iqtisadiyyatına, onun bel sütununu təşkil edən sənayenin dayanıqlı inkişafına öz mənfi təsirini göstərmişdir.

Qlobal iqtisadi-maliyyə böhranı son onilliklər ərzində dünya iqtisadi sisteminə sıx inteqrasiya olunmuş Azərbaycan iqtisadiyyatı üçün də təhlükəli risklər yaratsa da, ölkədə həyata keçirilən davamlı iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişafı nəticəsində formalaşan valyuta ehtiyatı Azərbaycan iqtisadiyyatının böhran dövrü üçün maliyyə sabitliyinin təminatına çevrilmişdir. Bütün bunlara baxmayaraq həm 2007-2008-ci illərdə baş verən böhran və COVİD-19 pandemiyası Azərbaycanın sənaye sektorunun istehsal-təsərrüfat fəaliyyətinə öz mənfi təsirini göstərmişdir. Odur ki, həmin təsirlərin nəticələrini tədqiq etmək, ehtiyat imkanlarını aşkara çıxarmaq və onlardan səmərəli istifadə etmək kontekstində metodiki və əməli xarakterli tövsiyələr işləyib hazırlamaq zərurəti öz aktuallığını saxlayır.

**İqtisadi böhranların təsnifatı, başvermə səbəbləri və onların törətdiyi fəsadlar**

Tarixin ayrı-ayrı dövrlərində, daha doğrusu bizim eradan əvvəl və sənayenin yarandığı dövrdən bu vaxtadək baş verən iri iqtisadi -maliyyə böhranlarının təsnifatı tərəfimizdən tərtib edilən 1 saylı cədvəldə öz əksini tapmışdır.

*Cədvəl 1*

***Beynəlxalq səviyyədə baş verən əsas iqtisadi-maliyyə böhranlarının xarakterik xüsusiyyətləri və törətdiyi fəsadların təsnifatı***

| Başvermə tarixi (dövrü) | Başlıca səbəbləri | Əhatə etdiyi ölkələr | Törətdiyi fəsadlar (ziyanlar), nəticələr |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Bizim eradan əvvəl III-IV əsrlər | Ayrı-ayrı əyalətlər arasında iqtisadi əlaqələrin zəif olması;<br>-İmperiya ərazisinin zəif qorunması<br>-Orduda intizamın zəif olması<br>-Cəmiyyətdə davam edən mədəni böhran | Roma imperiyası dövründə | Nəticə etibari ilə İmperiya süqut etdi, dağıldı |
| 1772-ci il | Londonda başlayan kredit böhranı, qarşılıqlı borcların geri qaytarma prosesində baş verən gərginliklər | İngiltərə, Şotlandiya, Hollandiya, Avropanın və Britaniyanın koloniyaları | İngiltərədə və digər ölkələrdə bank sektorunun çökməsi |
| 1825, 1836 və 1847-ci illər | Müstəqillik əldə edən Latın Amerikası ölkələrinə maliyyə kapitalı axınının artması | İngiltərə, ABŞ, Almaniya, Fransa, İtaliya | Bir sıra inkişaf edən ölkələrin iqtisadiyyatı repsessiyaya uğramış, sənaye məhsulunun istehsalı kəskin azalmışdır. |
| 1857-ci ildə ilk dünya iqtisadi böhranı | Dəmiryol şirkətlərinin kütləvi şəkildə müflisləşməsi nəticəsində baş vermişdir. | ABŞ, Almaniya, İngiltərə, Fransa və digər Avropa ölkələri | Xammal və materialların daşınmasında yaranan təchizat problemi nəticəsində sənaye məhsulları istehsalının əsaslı şəkildə aşağı düşməsi |
| 1872-1873-cü illərdə ikinci dünya iqtisadi böhranı | Yaranan bank və valyuta böhranı, daşınmaz əmlak üzrə spekulyativ əməliyyatların çoxalması | Almaniya, Danimarka, Avstriya, İtaliya, Finlandiya, Norveç, ABŞ | Qiymət artımı, kredit faizlərinin yüksəlməsi, bankların fəaliyyətində qeyri-sabitliyin yaranması |

*Cədvəl 1-in davamı*

| | | | |
|---|---|---|---|
| 1900-1903-cü illər | Rusiya və ABŞ-da başlayan sənaye böhranı | ABŞ, Rusiya, Almaniya, İtaliya, Fransa və s. | Sənaye müəssisələri iflasa uğramış, işsizliyin səviyyəsi kəskin yüksəlmişdir. |
| 1907-1914-cü illər | I Dünya müharibəsi qabağı və ondan sonrakı dövrdə yaranan iqtisadi böhran | Bir çox dünya ölkələri | İqtisadiyyatın dağılması, əhalinin məhvi, xəstəliklər və s. |
| 1920-1921 və 1929-1933-cü illərin dünya iqtisadi böhranı | Ən uzun, ağır və çoxcəhətliliyi ilə fərqlənən böhran olmaqla sənaye istehsalı kəskin azalmışdır. Bu böhran 1939-cu ilədək davam etmiş və Böyük Depressiya püskürməsi baş vermişdir. | ABŞ-da başlamış, sonra Avropa və Asiya ölkələrini əhatə etmişdir. | Sənaye istehsalı ABŞ-da 41,2%, Almaniyada 40,2%, Fransada 31%, İtaliyada 33%, İngiltərədə 16,2% azalmışdır. Çində kənd təsərrüfatı istehsalı 72% aşağı düşmüşdür. Dünyanın 32 ölkəsində işsizlərin sayı 21,4 mln. nəfərə çatmışdır. Dünyada sosial qarşıdurmalar baş vermişdir. |
| II Dünya müharibəsindən sonra 1948-1949; 1953-1954; 1957-1958-ci illərdə baş verən müxtəlif böhranlar | II Dünya müharibəsinin törətdiyi fəsadlar, milli-iqtisadiyyatlarda baş verən parçalanmalar, hərbi istehsalın artması, inflyasiya prosesinin güclənməsi | ABŞ, Almaniya, İngiltərə, Yaponiya, bütün post sosialist ölkələr | "Soyuq müharibə" şəraitində hərbi istehsalın artması böhran illərində inflyasiya prosesini gücləndirmiş, XX əsrin 50-60-cı illərində hərbi xərclər kəskin artmış, istehsal edilən məhsullara hərbi sənayedə üstünlük verilmiş, maliyyə sistemində disbalans yaranmışdır. ABŞ-da mənzil tikintisi 50%, maşınqayırma, kimya və elektronika sahələrində istehsal 20-30% azalmış, işsizlərin sayı 8,5 mln. nəfərə çatmış, orta əməkhaqqı azalmış, firmaların müflisləşməsinin miqdarı artmışdır. Nəticədə böhranın yaratdığı itki 400 milyard dollaradək yüksəlmişdir. |
| 1970-1975-ci illərdə silsilə enerji böhranları | İstilik enerjisi və xammal ilə səciyyələnmiş və yaxud OPEK-in neft böhranı kimi yadda qalmışdır. | ABŞ, İngiltərə, İsveç, Yaponiya və digər inkişaf etmiş ölkələr | Enerji balansında dəyişiklik baş vermiş, neftin xüsusi çəkisi artmış, enerji ehtiyatlarının idxalından asılılıq güclənmişdir. Xammal məhsullarının qiyməti 87% yüksəlmiş, xammalın əvəzlənməsi siyasətinə keçid 2 dəfə azalmış və ərzaq böhranı yaranmışdır. |
| 1979-1982-ci illərdə baş verən iqtisadi böhran | Gündəlik istehlak mallarıistehsalında və ağır sənayedə baş verən böhranlar nəticəsində istehsalın həcminin kəskin azaldılması | İnkişaf edən və inkişaf etməkdə olan bir çox ölkələri əhatə etmişdir. | Sənaye istehsalının həcmi inkişaf etmiş ölkələrdə 95,5%, inkişaf etməkdə olan ölkələrdə 87,5%, Avropa iqtisadi birliyi ölkələrində isə 1,2% azalmışdır. |
| 1985-1990-cı illərdə SSRİ-də baş verən iqtisadi böhran | Həyata keçirilən "yenidənqurma" siyasəti iqtisadi böhranı dərinləşdirmiş, iqtisadi böhran siyasi böhranla müşahidə olunmuşdur. | SSRİ-də və digər post sosialist ölkələrində | SSRİ-də istehsal və milli gəlir2,5-3 dəfə azalmış, SSRİ-nin və dünya sosializm sisteminin iflasına gətirib çıxarmış, inflyasiya yüksək həddə çatmışdır. |

*Cədvəl 1-in davamı*

| | | | |
|---|---|---|---|
| 1988-1993 illərdə baş verən siyasi böhran | Sumqayıt şəhərində baş verən millətlərarası toqquşma, Qərbi Zəngəzurdan azərbaycanlıların tam şəkildə çıxarılması, Azərbaycanda başlayan azadlıq hərəkatı, I Qarabağ savaşı | Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin baş verməsi | 200 min nəfərdən çox azərbaycanlının Ermənistandan qovulması, Dağlıq Qarabağ və ətraf 7 inzibati rayonun işğal edilməsi, iqtisadiyyatın və sosial infrastrukturun tam dağıdılması, 700 minə yaxın əhalinin məcburi köçkün və qaçqın halına salınması, 40 min nəfərə yaxın əhalinin əsir götürülməsi və kütləvi qırğını, Xocalı soyqırımının törədilməsi, 6 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsinin, su-elektrik stansiyalarının dağıdılması, geniş miqyaslı ekoloji terrorun həyata keçirilməsi və s. |
| 1991-1995-ci illərdə yaranan iqtisadi böhran | Sosializmdən bazar iqtisadiyyatına keçid, müttəfiq respublikaların öz müstəqilliyini yenidən bərqərar etməsi | SSRİ-nin tərkibinə daxil edilən müttəfiq respublikalar | Bazar iqtisadiyyatı sisteminə keçid, iqtisadi əlaqələrin kəsilməsi nəticəsində istehsalın həcminin kəskin azalması, yüksək dərəcədə inflyasiyanın baş verməsi, işsizliyin artması, əməkhaqqının kəskin azalması, milli valyutanın buraxılması və onun tezliklə ucuzlaşması. |
| 1997-ci ilin Asiya böhranı | Banklar tərəfindən sistemsiz paylanan kredit bazarlarda çoxlu borcların yaranmasına şərait yaratdı. | Taylandda başlayan böhran. İndoneziya, Sinqapur, Honq-Konq, Malayziya, Cənubi Koreya | Taylandın valyuta ehtiyatının tükənməsi, bazarlarda yaranan gərginlik, sərmayə sahiblərinin Şərqi Asiya ölkələrinin iqtisadi böhrana sürüklənməsi nəticəsində dünya miqyasında maliyyə çöküşünün yaranması. |
| 2001-2002-ci il Argentina iqtisadi böhranı | Valyuta problemləri və maliyyə çatışmazlığı. Depozit hesablarının dondurulması, əmanətlərin bankdan çıxarmaq imkanına məhdudiyyət | Argentina və onun uzun illər davam edən maliyyə böhranı | İnflyasiya 5000% səviyyəsinə, yəni astronomik səviyyəyəı çatmışdır. Ölkənin bütün bazarlara çıxışının itməsi, özəl maliyyə qurumlarının ölkədən xaric edilməsi, müəssisələrin iflasa uğraması, istiqraz buraxılışının 60%-nin borclara ödənilməsi və s. |
| 2007-2008-ci illərdəki iqtisadi böhran | “Böyük Depressiya” böhranından sonra ən gərgin qlobal iqtisadi hadisə hesab edilir. | Bütün dünya ölkələrinin iqtisadiyyatında | ÜDM-in mənfi dinamikası yaranmış, dollar ucuzlaşmış, dünya ticarətində əsaslı geriləmə baş vermiş, işsizlik və yoxsulluq yüksək səviyyəyə çatmış, ipoteka borcları artmış, sosial-iqtisadi problemlərin siyasi xarakter alması, ərzağın qiymətlərinin artması və s. |

***Cədvəl 1-in davamı***

| | | | |
|---|---|---|---|
| 2020-ci il | II Qarabağ müharibəsinin başlanması | Ermənistan-Azərbaycan | 44 gün ərzində Ali baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusu 300-ə yaxın şəhər və kəndlərimizi işğaldan azad edərək Şanlı Qələbəyə nail olundu. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları işğaldan azad edildikdən sonra keçən dövrlərdə onun bərpasına 7,7 mlrd. manat vəsait yönəltməklə müasir infrastruktur yaradılmış, ərazilər minalardan və döyüş sursatlarından tədricən təmizlənərək əhalinin öz dogma yurdlarına böyük qayıdışına imza atılmışdır. |
| 2020-ci ildə baş verən qlobal COVİD-19 koronavirusu (pandemiya dövrü) | Ən böyük tələb və təklif şoklarının yaranması | Bütün dünya ölkələri | Səhiyyə hadisəsinin daha çox iqtisadi fenomenə çevrilməsi baş verdi, risk menecmenti konsepsiyası ilə əlaqədar nəzəriyyələrə ciddi zərbənin vurulması, riskin qiymətləndirilməsi üzrə yeni yanaşmaların yaranmağa başlaması, qlobal məhsul bazarının və istehsalın kəskin azalması, əhalinin sağlamlığı ilə bağlı narahatçılığın yaranması, ölüm hallarının kütləvi xarakter alması, xarici ticarətin həcminin, makroiqtisadi göstəricilərin səviyyəsinin aşağı düşməsi, qlobal dəyər zəncirində baş verən qırılmalar və s. |
| 2021 və 2022-ci illər | Yaxın Şərqdə davam edən antiterror əməliyyatları, Rusiya-Ukrayna müharibəsi | Yaxın Şərq ölkələri, Rusiya, Ukrayna | İşsizlik və miqrasiya probemləri güclənmiş, insan ölümü artmış, Avropa ölkələrində enerji və taxıl böhranı yaranmış, taxta və kağız materialları bahalaşmışdır. |

***Mənbə:*** *Cədvəl müəllif tərəfindən KİV-də mövzuya aid dərc edilən məlumatların sistemləşdirilməsi nəticəsində tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, böhranlar dünyanın çox sayda inkişaf edən və inkişaf etməkdə olan ölkələrini əhatə etmiş və ciddi fəsadlar törətmişdir. Onların içərisində: sənaye istehsalının kəskin azalması, işsizliyin artması, ayrı-ayrı iqtisadi fəaliyyət sahələrinin müflisləşməsi, xammalın qiymətinin artması, inflasiyanın yüksək həddə çatması, kredit faizlərinin yüksəlməsi, hərbi sənaye məhsullarının istehsalının sürətli artımı, enerji balansında dəyişiklik, neftin qiymətinin artıb-azalması, yoxsulluğun yüksək həddə çatması, ipoteka borclarının çoxalması, xəstəliklərin baş verməsi nəticəsində insan tələfatı, ədalətsiz müharibələr və sairə üstünlük təşkil etmişdir.

**2007-2008-ci illərdə baş verən iqtisadi böhranların Azərbaycan iqtisadiyyatına təsiri**

Bu böhran dünya maliyyə bazarında yaranmış və iqtisadiyyatın real sektoruna nüfuz edərək ciddi fəsadlar yaratmışdır. Bu, Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərmişdir. Belə ki, 2009-cu ildə 2008-ci ilə nisbətən ÜDM-in həcmi 11,3%, onun adambaşına düşən məbləği 12,4%, sənaye məhsulunun həcmi 24,2%; sənayedə yaranan əlavə dəyər 25,6%; onun ÜDM-dəki xüsusi çəkisi isə - 58,5%-dən 49,1%-zə enmiş və yaxud 9,4 punkt azalmışdır. Müqayisə dövründə sənaye müəssisələrinin sayının 93 vahid və ya 3,2% azalması orada istehsal edilən məhsulun bir müəssisə

həddindəki məbləğinin də 21,4% azalmasını şərtləşdirmiş, bir sənaye müəssisəsində yaranan əlavə dəyər isə 23,1% azalmışdır. Bütün bunlar nəticə etibarı ilə ölkənin sənaye sektorunda yaranan xalis mənfəətin 27%, onun bir müəssisəyə düşən məbləğinin isə - 24,5% azalmasına yol açmışdır. Nəticədə, sənayedə formalaşan xalis mənfəətin ölkə iqtisadiyyatındakı eyni adlı göstəricisində xüsusi çəkisinin 8,6 punkt azalmasına şərait yaratmışdır.

Araşdırmalar göstərir ki, respublikanın bütün sənaye müəssisələrinin anbarlarda hazır məhsul ehtiyatı (qalığı) 2007-2009-cu illərdə 21% azaldığı halda, emal sənayesi müəssisələrində onun məbləği cəmi 6,1 mln. man və ya 3,0% azalmışdır. Həmin dövrdə sənaye istehsal indeksi 117,7%-dən 80,6%-ə, o cümlədən emal sənayesində 118,8%-dən 95,4%-ə enmiş, 2009-cu ildə əvvəlki ilə nisbətən kəskin azalmışdır.

Rəsmi statistik məlumata görə, böhran səbəbindən sənayedə əsas kapitala yönəldilən investisiyanın məbləği 2007-2009-cu illərdə 29,8%, həmin vəsaitin ölkə iqtisadiyyatındakı investisiyadakı xüsusi çəkisi isə 19,8% aşağı düşmüşdür. Onu da qeyd etmək vacibdir ki, ölkənin emal sənayesinə yönəldilən investisiyanın mütləq həcmini daxili investisiyalar təşkil edir. Digər hesablamalara görə, ölkənin emal sənayesinə yönəldilən xarici investisiyalar epizodik xarakter daşıyır və azalan xətlə dəyişir ki, bu da oradakı müəssisələrin innovasiya aktivliyinə, eləcə də istehsalın şaxələndirilməsinə öz mənfi təsirini göstərir.

Həmin iqtisadi böhran dövründə, daha doğrusu 2009-cu ildə ölkənin xarici ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 50,2%, o cümlədən ixracın həcmi 55,1% azalmış, idxalın həcmində də 14,7% geriləmə müşahidə edilmişdir [2, s. 610]. Ədalət naminə qeyd etmək lazımdır ki, 2010-cu ildə Azərbaycanda uğurla həyata keçirilən antiböhran tədbirləri nəticəsində əvvəlki ilə nisbətən həm makroiqtisadi göstəricilərdə və həm də sənaye fəaliyyətini əks etdirən fərdi hesablanmış göstəricilər üzrə yüksək artım tempi təmin edilmişdir (cədvəl 2).

**COVİD-19 pandemiyasının sənaye iqtisadiyyatının inkişafına təsiri**

Dünya ölkələrinin səhiyyə sistemlərindəki boşluqlar nəticəsində qlobal iqtisadi dəyər zəncirinə dağıdıcı zərbə vurmuş COVİD-19 pandemiyası 2007-2008-si illərdə yaranan "Böyük Depressiya" böhranından sonra tələb və təklif şoklarını özündə əks etdirən ən böyük uğursuzluqdur.Tarixdə ilk dəfədir ki, səhiyyə hadisəsi nəticə etibarı ilə daha ciddi iqtisadi fenomen halına çevrilmişdir. Pandemiya risk menecmentinə dair formalaşan konsepsiya üzrə mövcud nəzəriyyələrə ciddi zərbə vurmuş, riskin qiymətləndirilməsi üzrə ən nüfuzlu kredit agentliklərinin və yaxud iqtisadi proqnozlaşdırma üzrə tanınmış qurumların qiymətləndirə bilmədiyi yeni yanaşmaların ortaya çıxmasının vacibliyini ön plana çəkmişdir. Hazırda az templə də olsa davam edən pandemiya insanların sağlamlığı ilə bağlı narahatlıqlarla yanaşı biznes və istehlakçı inamın aşağı düşməsinə, məhsulların ixracına, eləcə də daxili bazarda hərəkətinə öz məhdudiyyətini saxlamaqdadır. Pandemiyanın təsiri nəticəsində məcmu gəlirlərin azalması, tələbin daralması prosesi davam edir ki, bu da bazarda qiymətlərin sürətlə artmasını şərtləndirir. Rəsmi statistik məlumata görə Azərbaycanda fəaliyyət göstərən müəssisə və təşkilatlarda 2021-ci ildə yaranan zərərin məbləği 2020-ci illə müqayisədə 22 mln. man, o cümlədən sənayedə- 255 mln. man artmışdır [2, s. 378]. Həmin dövrdə respublikada sənaye məhsulu istehlakçının qiymət indeksi 75,2%-dən 169,6%-ə yüksəlmişdir ki, bu da MDB ölkələri içərisində ən yüksək artımdır [2, s. 35].

COVİD-19 pandemiyası ölkədə istehsal edilən sənaye məhsulunun mülkiyyət növlərinə görə həcminə də öz mənfi təsirini göstərmişdir. Dövlət tərəfindən ayrılan maliyyə dəstəyinə baxmayaraq 2020-ci ildə əvvəlki ilə nisbətən dövlət mülkiyyətində olan sənaye müəssisələrində istehsalın həcmi – 3,8%; qeyri-dövlət müəssisələrində - 24,4%; xarici mülkiyyətdə olan müəssisələrdə isə - 33,1% azalmışdır (cədvəl 3).

*Cədvəl 2.*

***Dünyada 2007-2008-ci illərdə baş verən iqtisadi böhranların Azərbaycan sənaye-iqtisadiyyatına təsirini özündə əks etdirən göstəricilər (hər ilin müvafiq qiymətləri ilə)***

| Göstəricilər | İllər | | | | Artım tempi faizlə | |
|---|---|---|---|---|---|---|
| | 2007 | 2008 | 2009 | 2010 | 2008-2009-cu illərdə | 2009-2010-cu illərdə |
| Ümumi Daxili Məhsul (ÜDM), (mln.man) | 28361 | 40137 | 35602 | 42465 | 88,7 | 119,3 |
| Əhalinin hər nəfərinə düşən ÜDM (man) | 3297 | 4604 | 4033 | 4753 | 87,6 | 117,9 |
| Sənaye məhsulunun həcmi (mln.man) | 22495 | 29774 | 22564 | 27978 | 75,8 | 124,0 |
| Sənayedə yaranan əlavə dəyər (mln.man) | 16871 | 23497 | 17490 | 21942 | 74,4 | 125,5 |
| Sənayedə yaranan əlavə dəyərin ÜDM-də payı (%-lə) | 59,5 | 58,5 | 49,1 | 51,7 | -9,4 | +2,6 |
| Sənaye müəssisələrinin sayı, vahid | 2825 | 2887 | 2794 | 2650 | 96,8 | 94,8 |
| Bir sənaye müəssisəsində istehsal edilən məhsulun həcmi, mln.man | 7,96 | 10,3 | 8,1 | 10,6 | 78,6 | 130,9 |
| Bir sənaye müəssisəsində yaranan əlavə dəyər, mln. manat | 5,97 | 8,14 | 6,26 | 8,28 | 76,9 | 132,3 |
| Sənaye sektorunun xalis mənfəəti, mln.manat | 15138 | 21451 | 15660 | 19558 | 73,0 | 124,9 |
| Bir sənaye müəssisəsində formalaşan xalis mənfəət, mln.manat | 5,36 | 7,43 | 5,61 | 7,38 | 75,5 | 131,6 |
| Sənayedə formalaşan xalis mənfəətin ölkə iqtisadiyyatındakı payı, faizlə | 77,5 | 73,3 | 64,7 | 68,5 | -8,6 | +3,8 |
| Bütün sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı (qalığı), mln. man | 278,0 | 250,6 | 213,3 | 215,4 | 85,1 | 101,0 |
| *O cümlədən:* emal sənayesi sahələrində | 192,2 | 204,3 | 186,4 | 165,9 | 91,2 | 89,0 |
| Bir sənaye müəssisəsindəki məhsul ehtiyatının (qalığının) məbləği mln.man | 0,10 | 0,09 | 0,08 | 0,08 | 88,9 | 100,0 |
| Sənaye istehsalı indeksi (əvvəlki ilə nisbətən, faizlə) | 117,7 | 123,4 | 80,6 | 130,5 | X | X |
| *O cümlədən:* emal sənayesində | 118,8 | 111,7 | 95,4 | 105,1 | X | X |
| Sənayedə əsas kapitala yönəldilən investisiyalar, mln.manat | 4591 | 4249 | 3225 | 4276 | 75,9 | 132,6 |
| Sənayedə əsas kapitala yönəldilən investisiyaların ölkə üzrə bütün investisiyalardakı xüsusi çəkisi, faizlə | 61,5 | 42,7 | 41,7 | 43,2 | -1,0 | +1,5 |
| Xarici ticarət dövriyyəsi, mln.dollar, o cümlədən | 11772 | 54926 | 27551 | 33162 | 50,2 | 120,4 |
| İxracın həcmi | 6058 | 47756 | 21428 | 26560 | 44,9 | 124,0 |
| İdxalın həcmi | 5714 | 7170 | 6123 | 6602 | 85,4 | 107,8 |

***Mənbə:*** *Cədvəl “Azərbaycanın statistik göstəriciləri”nin və “Azərbaycanın sənayesi” illik statistik məcmuələrinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib hesablanmışdır* ***[2;3]”***

*Cədvəl 3*

***COVİD-19 pandemiyasının Azərbaycanda istehsal edilən sənaye məhsulunun (işin, xidmətin) mülkiyyət növləri üzrə bölgüsünə təsiri (mln. manatla)***

| Göstəricilər | İllər | | Artım tempi | |
|---|---|---|---|---|
| | 2019 | 2020 | Mütləq kənarlaşma ± | Əvvəlki ilə nisbətən %-lə |
| Bütün mülkiyyət növləri üzrə | 46999,2 | 37269,9 | -9729,1 | 79,3 |
| Dövlət mülkiyyəti | 8422,4 | 8101,7 | -321,7 | 96,2 |
| Qeyri-dövlət mülkiyyəti | 38576,8 | 29168,2 | -9408,6 | 75,6 |
| Xüsusi mülkiyyət | 7200,8 | 7852,0 | +451,2 | 109,1 |
| Birgə (qarışıq mülkiyyət) | 940,8 | 972,1 | +31,3 | 103,3 |
| Xarici mülkiyyət | 30435,2 | 20344,1 | -10091,1 | 66,9 |

***Mənbə:*** *Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK, 2022, s.12"*

COVİD-19 pandemiyasının Azərbaycanın sənaye iqtisadiyyatına təsirini özündə əks etdirən və tərəfimizdən hesablanan indikatorların mütləq və faizlə səviyyəsini xarakterizə edən məlumatlar 4 saylı cədvəldə əks etdirilmişdir. Cədvəlin məlumatlarından göründüyü kimi, pandemiyanın geniş vüsat aldığı 2020-ci ildə 220 yeni sənaye müəssisəsi fəaliyyət göstərsə də bütünlükdə sənaye məhsulunun həcmi 2019-cu ilə nisbətən 20,7%, sənayedə yaranan əlavə dəyər 27%; onun ÜDM-dəki payı – 7,3 punkt azalmışdır. Müqayisə dövründə hər bir sənaye müəssisəsində istehsal edilən məhsulun və əlavə dəyərin məbləği də azalmış, bu da nəticə etibarı ilə sənaye sektorunda formalaşan mənfəətin 34,1% azalmasına, zərərin isə - 146,6% artmasına imkan vermişdir. Müqayisə dövründə bütün sənaye məhsullarının anbarlarında hazır məhsul qalığı 128,1%, bir müəssisənin payına düşən qalıq məhsulu 120%, emal sənayesi müəssisələrində isə - 119,1% çoxalmışdır. Təhlil dövründə sənayedə əsas kapitala yönəldilən investisiyanın məbləği 193 mln.manat azalmış, lakin onun ölkə üzrə bütün investisiyaların tərkibindəki xüsusi çəkisi – 49,9%-dən 52,6%-ə çatmış və yaxud 2,4 punkt yüksəlmişdir.

Yuxarıda qeyd edilən bütün faktlar onu söyləməyə imkan verir ki, ölkə sənayesində istifadəsi zəruri olan çoxsaylı ehtiyat imkanları mövcuddur və onlardan səmərəli istifadə üzrə daha təsirli tədbirlərin həyata keçirilməsinə ehtiyac duyulur ki, bu da baş verə biləcək iqtisadi və maliyyə böhranının qarşısının alınmasına öz töhfəsini verə bilər.

*Cədvəl 4.*

***COVİD-19 pandemiyasının Azərbaycan sənaye iqtisadiyyatına təsirini özündə əks etdirən göstəricilər***

| Göstəricilər | İllər | | Artım tempi | |
|---|---|---|---|---|
| | 2019 | 2020 | Mütləq kənarlaşma ± | Əvvəlki ilə nisbətən %-lə |
| Sənaye məhsulunun həcmi, (mln.man) | 46999 | 37270 | -9738 | 79,3 |
| Sənayedə yaranan əlavə dəyər, (mln.man) | 33886 | 24733 | -9153 | 73,0 |
| Sənayedə yaranan əlavə dəyərin ÜDM-də payı, (%-lə) | 41,4 | 34,1 | -7,3 | X |
| Sənaye müəssisələrinin sayı, vahid | 3169 | 3389 | +220 | 107,0 |
| Bir sənaye müəssisəsində istehsal edilən məhsulun həcmi, mln.man | 14,8 | 11,0 | -3,8 | 74,3 |
| Bir sənaye müəssisəsində yaranan əlavə dəyər, mln.manat | 10,7 | 7,3 | -3,4 | 68,2 |
| Sənaye sektorun xalis mənfəəti, mln.manat | 28629 | 18868 | -9761,0 | 65,9 |
| Bir sənaye müəssisəsində formalaşan xalis mənfəət, mln.manat | 9,0 | 5,57 | -3,43 | 61,9 |

*Cədvəl 4-ün davamı*

| | | | | |
|---|---|---|---|---|
| Sənayedə formalaşan xalis mənfəətin ölkə iqtisadiyyatındakı payı, faizlə | 54,5 | 47,5 | -7,0 | X |
| Bütün sənaye müəssisələrində formalaşan zərərin məbləği, mln.man | 725 | 1063 | +338,0 | 146,6 |
| o cümlədən: emal sənayesi sahələrində | 488,5 | 426 | -62,5 | 87,2 |
| Bir sənaye müəssisəsində formalaşan zərərin məbləği, mln.man | 0,23 | 0,31 | +0,08 | 134,8 |
| Bütün sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı (qalığı), mln.man | 485,0 | 621,1 | +136,1 | 128,1 |
| o cümlədən: emal sənayesi sahələrində | 420,5 | 500,6 | +80,1 | 119,1 |
| Bir sənaye müəssisəsindəki məhsul ehtiyatının (qalığının) məbləği, mln.man | 0,15 | 0,18 | +0,03 | 120,0 |
| Sənaye istehsalı indeksi (əvvəlki ilə nisbətən, %-lə) | 101,8 | 96,0 | -5,8 | X |
| o cümlədən: Emal sənayesində | 111,5 | 110,6 | -1,0 | X |
| Sənayedə əsas kapitala yönəldilən investisiyalar, mln. man | 925,8 | 9065 | -193 | 98,0 |
| Sənayedə əsas kapitala yönəldilən investisiyaların ölkə üzrə bütün investisiyalardakı xüsusi çəkisi, faizlə | 49,9 | 52,6 | +2,4 | X |

***Mənbə:** Cədvəl "Azərbaycanın statistik göstəriciləri" və "Azərbaycanın sənayesi" illik statistik məcmuələrin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib hesablanmışdır [2;3].*

## *Nəticə*

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan qlobal meyillər, çağırışlar və imkanlar kontekstində qarşıdakı onilliklərdə bütünlüklə ölkə iqtisadiyyatını və onun üzv tərkib hissəsini təşkil edən sənaye sektorunu mümkün ola biləcək qlobal iqtisadi-maliyyə və sosial böhranlardan qorumaq üçün aşağıdakı təklif və tövsiyələrin həyata keçirilməsi öz faydasını vermiş olacaqdır:

- Milli iqtisadiyyatın strukturunun dəyişməsi əsasında mütərəqqi menecment formalarından geniş istifadə və innovasiya infrastrukturu şəbəkəsinin genişləndirilməsi;
- Azərbaycanın yüksək gəlirli ölkələr sırasına daxil olunması üçün iqtisadiyyatda sürətli rəqəmsal meyillərin gücləndirilməsi hesabına qlobal dəyər zəncirinə inteqrasiyanın dəstəklənməsi;
- Açıq iqtisadiyyat modelinin 4-cü sənaye inqilabının tələblərinə uyğunlaşdırılması üçün emal sənayesinin alt sahələrinin texniki-texnoloji səviyyəsinin, innovasiya aktivliyinin birbaşa xarici investisiyaların fəal cəlb edilməsi hesabına yüksəldilməsi, həmin sahədə xammal ixracından dəyər zənciri boyunca dərin emala keçirilməsi nəticəsində ixracyönümlü və idxalı əvəz edən geniş çeşidli sənaye və xalq istehlakı malları istehsalı imkanlarının genişləndirilməsi;
- Emal sənayesi sahələrində beynəlxalq standartların və keyfiyyət menecmentinin tətbiqinə münbit şəraitin yaradılması;
- Qeyri-neft-qaz sektorunun geniş şaxələndirilməsi hesabına valyuta gəlirlərinin artırılması;
- Daxili və birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına fəal cəlb edilməsi hesabına aşağı investisiya, dayanıqlı məzənnə, maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi, dayanıqlı və yüksək ödənişli yeni iş yerlərinin yaradılması, yüksək keyfiyyətli insan kapitalının formalaşmasının təmin edilməsi;
- Sənaye sektorunda sağlam və rəqabətli biznes mühitinin formalaşdırılması üçün məqsədli və startap layihələrinin işlənilməsi və icrasına üstünlük verilməsi. Bu məqsədlə innovasiya infrastrukturunun ölkənin bütün ərazilərində geniş şəbəkəsinin yaradılması.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. Bakı, 2022, 83 s.
2. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, DSK, 2011, 848 s; 2015, 814 s; 2021, 748 s, 2022, 746 s.
3. Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, DSK, 2011-280 s.; 2014-338s.; 2017-443 s.; 2022-212 s.
4. Qubad İbadoğlu-Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsirləri https://erc.az/files//file/Meqale-Gubad.pdf.
5. Süleymanov E.B., Zeynalov A. (2009). Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına-təsiri-https:www/rese archqat.net (publication)256035121
6. Yamin Savalanlı 1929 və 2008-ci il böhranlarının makroiqtisadi səbəb və nəticələri-baxımından - müqayisəsi-https:İİ-yaminsavalanlı. wordpress/com/2019/01/06/1929-2008
7. Джабиев Р.М. Мировой экономический кризис и пути его преодоления в Азербайджане// Проблемы современной экономики №4 Москва, 2009. www.economy.ru/art.php7pArtld=2815
8. Гринин Л.Е. Об истории экономических кризисов//Глобальный кризис как кризис перепроизводства денег. Философия и общество №1,2009,с.5 (https://www.socionauk-ru/authors/grinin_1_e/files/krizis_pereproizvodstva_2009.doc)



***Заур Джахангир оглы Асадов***
***докторант Института Экономики,***
***Министерства Науки и Образования Азербайджана***


## Характерные особенности глобального финансово-экономического кризиса и исследование его влияния на деятельность промышленного сектора Азербайджана


***Резюме***

**Цель исследования -** Раскрыть историю возникновения, характерные особенности и отрицательное влияние глобального финансово-экономического кризиса и его влияние за последние 15 лет на деятельность промышленного сектора Азербайджана, выявить соответствующие резервы и разработать рекомендации по их эффективному исследованию

**Методология исследования -** Были использованы методы, системный подход, группировка, сравнительный анализ и оценка.

**Практическое значение исследования** – заключается в том, что с помощью многочисленных индикаторов было оценено отрицательное влияние финансово-экономического кризиса на промышленный сектор Азербайджана за последние 15 лет. Для устранения выявленных недостатков предложен соответствующий механизм стимулирования, обоснована целесообразность расширения инновационных инфраструктур и активизация экономики страны в глобально-стоимостной цепи.

**Результаты исследования**- разработаны практические рекомендации организационно-экономического и технологического характера, использование которых будет способствовать предупреждению предстоящего кризиса в обрабатывающей промышленности республики.

**Оригинальность и научная новизна исследования -** характеризуется прежде всего разработкой принципиальной схемы классификации глобальных финансово-экономических кризисов, происходящих в мире, вкратце указаны их причины, характерные особенности и отрицательные последствия по странам мира. С помощью разработанных автором

системных индикаторов проанализировано и оценено влияние кризиса на деятельность промышленного сектора республики.

***Ключевые слова: глобальный экономический кризис, обрабатывающая промышленность, пандемия, классификация, стратегия, механизмы.***

***Zaur Jahangir Asadov***
***Doctoral student of the***
***Institute of Economics of the Ministry***
***of Science and Education of Azerbaijan***

## Characteristic features of the global financial and economic crisis and the study of its impact on the activity of the industrial sector of Azerbaijan

***Summary***

**Purpose of the study** To reveal the history of the emergence, characteristics and negative impact of the global financial and economic crisis and its impact over the past 15 years on the activity of the industrial sector of Azerbaijan, to identify the relevant reserves and develop recommendations for their effective study.

**Research methodology** systematic approach, grouping, comparative analysis and evaluation methods were used

**The practical significance of the study** lies in the fact that, with the help of numerous indicators, the negative impact of the financial and economic crisis on the industrial sector of Azerbaijan over the past 15 years was assessed. To eliminate the identified shortcomings, an appropriate incentive mechanism is proposed, the expediency of expanding innovative infrastructures and activating the country's economy in the global value chain is substantiated.

**The results of the research** - more effective preventive organizational-economic and technological recommendations containing international experience have been developed for the processing industry of Azerbaijan to withstand possible crises.

**Originality and scientific innovation of the research** - The classification scheme of the global economic and financial crises occurring in the world has been developed, the reasons for their occurrence, their characteristic features and the contrasts caused by them have been briefly explained for the countries of the world. The impact of crises on the activity of the industrial sector of Azerbaijan was analyzed and evaluated with the help of system indicators calculated by the author, and the ways of effective use of the discovered reserve opportunities were shown.

***Key words: global economic crisis, manufacturing industry, pandemic, classification, strategy, mechanisms.***